TƏMİR
TİKİNTİ
TƏCHİZAT

İZOLYASİYA SİSTEMLƏRİ

HAQQIMIZDA

Təmir Tikinti Təchizat MMC şirkəti olaraq 2006-cı ildə öz fəaliyyətinə başlayıb. Həmin dövr, şirkət Baku Roofing Company adlanırdı və müştərilərə xidmət olaraq, dam sistemlərinin satışını həyata keçirirdi. Şirkətin fəaliyyət sahəsi zamanla dəyişdi. Bu gün komanda olaraq fəaliyyətəmiz SMİ (Sənaye-Mülki Inşaat) və KAİ (Kottec və Azmərtəbəli İnşaat) izolyasiya sistemlərinin multikompleks təchizatı sahəsindədir. Əsas istiqamətimiz – təməl, fasad və dam sistemlərinin izolyasiyasıdır.

Biz TexnoNikol, Rockwool, İzocam, Bitumast, Lohmann, Kalevala, Kronospan, Fibraizol, Penopleks, Payteks, Amex, Kreisel, Tyvek və digər bu kimi dünya brendlərinin distributorluğunun daşıyıcısıyıq.Beynəlxalq brend olaraq 50-dən artıq şirkət təklif portfelinə daxildir və bu say daima artmaqda davam edir.

Paytaxt Bakıda 8 mağazamız, Quba şəhərində 1 filialımız, 2000 kv.m-lik anbarımız, 2 “gəzən” dükanımız və satış üzrə 25 təcrübəli menecerimiz fəaliyyət göstərir.
Biz işlədiyimiz müddət ərzində Azərbaycanın ən mühüm və dəyərli tikinti obyektləri olan – Crystal Hall, Baku White City, SOCAR və.s. üzrə material tədarükünü təşkil etmişik.

TTT.az –materialları, texnologiyaları və sistemləri diqqətlə seçərək daima araşdırma edən və yeni həllər təklif edən sertifikatlaşdırılmış mütəxxəsis və mühəndis komandasıdır.

Bizim məqsədimiz: İzolyasiya sənayesinin lideri olmaqdır.

Bizim vəzifəmiz: Müştərilərin tələbatlarını təmin edərək sənaye üzrə novator olmaq, sabit və etibarlı partnyor kimi qalaraq daima yüksəlməyə can atmaqdır!

PARTNYORLARIMIZ

ТЕХНОНИКОЛЬ

İstilik, su və səsizolyasiyası

ТЕХНОНИКОЛЬ SHINGLAS МНОГОСЛОЙНАЯ ЧЕРЕПИЦА

Elastik kirəmit

ROCKWOOL

Daş yunu

IZOCAM

Şüşə yunu

LOGICROOF®

Polimer membranları

Bitumast®

Praymer və mastikalar

Lohmann The Bonding Engineers

Yapışqan lentlər və yapışdırma məhsulları

БауТекс

Şüşə torlar

КАЛЕВАЛА WOOD PROCESSING MILL

OSB plitələr

ФибраИзол НГ негорючая мембрана

Fasadlar üçün yanmayan membranlar

kronospan

OSB plitələr

PAYTEKS

Geotekstil

ПЕНОПЛЭКС®

Müxtəlif istiqamətli isidicilər

CAMEX®

Bərkitmə elementləri

KREISEL

Tikinti qarışımları

Tyvek

Fasad və dam örtüyü membranları

CF Systems КЕРАМИКА БУДУЩЕГО

Keramoqranit

DÜZ DAM SİSTEMLƏRİ

Yastı (Hamar) dam örtüyü – damın tikintisi üçün ən ucuz və sərfəli variantdır. Bu dam sistemi yaşayış və sənaye tikililərinin inşaatında geniş istifadə olunur. Adını çəkdiyimiz dam sistemi təyinatından asılı olaraq səthi istismar edilən və istismar edilməyən ola bilər.

İSTİSMAR OLUNAN DAM ÖRTÜYÜ

Bu növ dam örtükləri, üzərində insanların gəzə bilməsini təmin etmək məqsədilə qurulur. Bu növ dam sistemində örtüyün hidroizolyasiya və havalandırma sisteminin təmir edilməsi və ya baxışdan keçirilməsi çox asandır.

İstismar üçün nəzərdə tutulan dam möhkəm və təsirli təzyiqə davamlı olmalıdır. Belə dam örtüyü yaşayış, ofis və digər məqsədlər üçün nəzərdə tutulmuş binalarda quraşdırıla bilər.



İstismar olunan düz dam sistemi strukturu

1. Praymer;
2. Hidroizolyasiya;
3. İstilik izolyasiyası - XPS;
4. Geotekstil;
5. Döşənmə;
6. Hidroizolyasiya;
7. Plitə (metlax,ceramika və s.).

İSTİSMAR OLUNMAYAN DAM ÖRTÜYÜ

Bu, adətən qaraj, anbar, hamam və ya köşk kimi çox da böyük sahəyə malik olmayan tikililərdə tətbiq olunur. Üzərinə insanların çıxması nəzərdə tutulmadığına görə, üzərinin sərtliyi xüsusi bir əhəmiyyət daşımır.

Yastı dam örtüyü davamlı və istifadəsi uzunömürlüdür. Bu dam sisteminə çəkilən xərclər çox aşağı və sərfəlidir.



Düz dam sistemi strukturu

1. Praymer;
2. Hidroizolyasiya;
3. İstilik izolyasiyası - XPS;
4. Geotekstil;
5. Beton qatqısı;
6. Hidroizolyasiya;
7. Qumlu hidroizolyasiyası.

Mailli dam — dam quruluşunun iki əsas növündən biridir. Hamar damlardan fərqli olaraq mailli damlar əriyən və yağış sularının axması üçün üst səthin (və yaxud üst səthlərin) əyriliyinə malikdir. Müxtəlif əyrilik sayı ilə çardaqlı və çardaqsız ola bilər.

MANSARD NÖVÜ MAILI DAM SISTEMI

Müasir fərdi tikintində mansard üslubu daha çox məşhurdur. Mansard evinizin yaşayış sahəsi genişləndirən bir elementidir. O damın altında yerləşən evin digər otaqlardan fərqlənməyən sahəsidir.



Mansard növü maili dam sistemin strukturu

1. Çatının tiri;
2. Buxardan qoruyan plyonka;
3. Istilik izolyasiyası - Daş yunu;
4. Hidro-külək qoruyucu plyonka;
5. Tir atma;
6. Əks tir atma;
7. OSB faner;
8. Astar xalça;
9. Elastik kirəmit;
10. Daxili tir atma;
11. OSB faneri.

KLASSIK NÖVÜ MAILI DAM SISTEMI

Evin bu hissəsi adətən "soyuq çardaq" (istifadə olunmayan) adlanır. Tikintində istifadə olunmuş dam ötrüyü materialından aslı olmayaraq bu növ çardaq evinizin qeyri yaşayış sahəsi olur.

Klassik növü maili dam sistemin strukturu

1. Çatının tiri;
2. Əks tir atma;
3. OSB faner;
4. Astar xalça;
5. Elastik kirəmit.

FASAD SİSTEMLƏRİ

Fasad sistemi — üst səthlərin xarici təsirlərdən qorunması üçün təyin edilmiş binaların fasad üzlüyü sistemidir və yeni binaların inşasında və köhnə binaların rekonstruksiyası (yenidən üzlənməsi) üzrə tətbiq edilir. Asma fasadda sistemində, daş yunu ilə plitə arasında olan arakəsmədə, havanın dövr etməsi, istifadə olan daş yunun uzunömürlüyünü təmin etməklə bərabər, binanın nəmişlikdən mühafizə edir.

DEKORATIV VƏ ASMA CƏBHƏ SISTEMLƏRI

İstənilən binanın fasadının keyfiyyətli, uzunömürlü və gözəl xarici işlənməyə ehtiyacı var. Bu mənada binanın üzü çox diqqət tələb edən bir yerdir.

Fasadın daima ətraf mühit təsirinə məruz qaldığını nəzərə alsaq, üzlənmə sisteminin seçilməsi olduqca vacibdir. Bu səbəbdən rütubətdən və küləkdən mühafizəni təmin edən, binanın daxili otaqlarını normal tempuraturda saxlayan və fasadın günəş şüaları təsirindən yanmasına imkan verməyən bir sistem seçmək lazımdır. Ən etibarlı və keyfiyyətli işlənmə fasad sistemlərindən biri montalamadır.



Fasad sistemi strukturu

1. Daşıyıcı divar;
2. Nəmdən qoruyan rəng astarı (Binder);
3. Yapışqan qarışığı;
4. Istilik izolyasiyası - Fasad üçün daş yunu;
5. Boşqabvarı dübel;
6. Fasad üçün şüşə toru;
7. Suvaq qarışığı;
8. İkinci lay suvaq qarışığı;
9. Künclər gücləndiricisi;
10. Dekorativ işlənmə.

HAVALANDIRMALI FASAD SİSTEMLƏRİ

Havalandırma fasadının dekorativ sistemi binanın atmosfer qalıqlarından qorunması funskiyasını yerinə yetirir. Üzlük panelləri və isidici plitələr arasında havalandırılan aralıqdır. Havanın dövretməsi sayəsində aralıqda istilikizolyasiyası qatı daima quru vəziyyətdə saxlanılır.



Havalandırıcı asma fasad sistemi

1. Divarların daşıyıcı hissəsidir;
2. Daşıyıcı sistemaltıdır;
3. İstilik izolyasiyası – havalandırılan fasad üçün daş yundur;
4. Polad və ya plastik mismarla izolyasiya üçün dübel;
5. Kompozit / keramoqranit / fibrosement.

Təməl — üzərində yerləşən konstruksiyaların bütün yüklərini qəbul edən və onları əsasa görə paylayan daşıyıcı tikinti konstruksiyası, binanın bir hissəsidir. Bir qayda olaraq, betondan, daşdan hazırlanır.
Binaların tikintisi üçün lentşəkilli, fincanşəkilli, sütunlu, dirəkli və plitəli bünövrələr tətbiq edilir. Bünövrənin seçilmi yerin (ərazinin) seysmik aktivliyindən, torpaqdan və arxitektura həllərindən asılıdır.

STANDART TƏMƏL SİSTEMİ

İstənilən inşaat konstruksiyasının təməli olaraq, bünövrə etibarlı və davamlı olmalıdır. Torpaqla birbaşa təmasda olması, onun su ile təmasda olması deməkdir. Bu səbəbdən binanın təməlinin nəmə qarşı qorumaq üçün yüksək keyfiyyətli izolyasiyasını təmin etmək lazımdır.

Standart təməl sistemin strukturu

1. Təməlin dəmir-beton konstruksiyası;
2. Praymer;
3. Mastika;
4. Profilləşdirilmiş membranlar;
5. Ekstruziya edilmiş köpük polistirolu;
6. Profilləşdirilmiş membran;
7. Ayırıcı hidroizolyasiya;
8. Köpən qaytan;
9. Qumdan hazırlıq.

DRENAJLI TƏMƏL SİSTEMİ

İstənilən inşaat konstruksiyasının təməli olaraq, bünövrə etibarlı və davamlı olmalıdır. Torpaqla birbaşa təmasda olması, onun su ile təmasda olması deməkdir. Bu səbəbdən binanın təməlinin nəmə qarşı qorumaq üçün yüksək keyfiyyətli izolyasiyasını təmin etmək lazımdır.



Drenajlı təməl sistemin strukturu

1. Texnoelast;
2. Bitumlu praymer;
3. Profilləşdirilmiş membran;
4. Ekstruziya edilmiş köpük polistirolu;
5. Köpən qaytan;
6. Bünövrənin divarı;
7. Drenaj borusu;
8. Çınqıldan hazırlıq;
9. Keçid bortu;
10. Təməl süxuru;
11. Əks tökmə süxuru;
12. Bərkitmə plitələrinin fiksasiyası üçün bərkidici.

TEXNİKİ İZOLYASİYA SİSTEMLƏRİ

Texniki izolyasiya – bu boru kəmərlərinin, sənaye avadanlıqlarının, texniki bağlantıların izolyasiyası üzrə təyin olunmuş isidici qrupudur. Onların istifadəsi istilik itkisinin əhəmiyyətli dərəcədə azaldılması, enerji ehtiyatı sərfiyyatının azaldılması və işçi heyətini mümkün olan zədələrdən (travmalardan) qorunması üçün imkan yaradır.

AVADANLIQLARIN TEXNİKİ İZOLYASİYASI

Bu sistem avadanlıqların effektivliyinin artırılması və iş rejiminin saxlanılması, yanıqlardan (şaxtadan donma) qorunma, avadanlığın uzunömürlülüyü və iş təhlükəsizliyi üçün istifadə olunur. Qazan korpuslarının, içməli su rezervuarının (çəni), buxarqızdırıcıların, elektrofiltrlərin, bacaların və digər texnoloji avadanlqıların izolyasiyası üçün istifadə olunur.

Avadanlıqların texniki izolyasiya sistemi strukturu

1. Aparat korpusu;
2. Tikişli mat;
3. Bandaj;
4. Müdafiə örtüyü;
5. Dayaq halqaları.

BORU KƏMƏRLƏRİNİN TEXNİKİ İZOLYASİYASI

Hazırki sistem müxtəlif diametrli və geniş tətbiq temperaturlu boru kəmərlərinin izolyasiyası üçün istifadə olunur. Boru kəmərinin təyinatından asılı olaraq vacib xüsusiyyətlərin təmin olunması məqsədilə müxtəlif materiallar tətbiq olunur.

Boru kəmərlərinin texniki izolyasiya sistemi strukturu

1. Boru kəməri;
2. Silindr;
3. İzolyasiyanın örtük qatı (qoruyucu örtük);
4. Dayaq qulpları və ya halqaları;
5. Bandaj.

İSTİLİK İZOLYASİYASI - DAŞ YUNU

İstilik izolyasiyası (daş yunu), ümumi olaraq, mülki inşaatda adi və yüklənən bünövrələrin, damların, döşəmələrin qurulmasında, fasad və kürsülüklərin isidilməsində tətbiq edilir.

EKSTRUZİYA EDİLMİŞ KÖPÜK POLİSTİROL / XPS

Ekstruziya edilmiş köpük polistirol ən yüksək keyfiyyətli istilik izolyasiya materiallarından biridir. İstilik keçiriciliyinin yüksək davamlılığı və aşağı göstəricisi evlərin kottec və özəl inşaatında materialın tanınmasını şərtləşdirir.

ŞÜŞƏTORLAR

Bu material tavan və divarlarda çatlarının yaranmasının qarşısının alınması üçün istifadə olunur. Həmçinin, suvaq işləri zamanı su izolyasiyası və divarların möhkəmləndirilməsi üçün istifadə olunur.

DÜBEL-MİSMAR

Dübel və xüsusi mismar dəsti şəklində bərkidici vasitədir. Istilik izolyasiyasının kərpic, beton, daş kimi sıx gövdəli materiallara bərkidilməsinə xidmət edir.

MATERİALLAR

HİDROİZOLYASİYA MATERİALLARI

Binaların, qurğuların və inşaat konstruksiyalarının hidroizolyasiyası üçün nəzərdə tutulub.

PRAYMERLƏR VƏ MASTİKALAR

Tökmə dam örtüyü və hidroizolyasiya materiallarının möhkəm fiksasiya edilməsinin təmin edilməsi üçün beton, taxta və metal səthlərin astarlanması.

PLANTER

Profilləşdirilmiş membran (PLANTER) – yüksəksıxlıqlı polietilendən hazırlanmış, 8 mm hündürlüyə malik, formalaşmış dəyirmi çıxıntılı lövhə (HPDE).

POLİMER (PVC) MEMBRANLARI

Əsas təyinatı damın, təməlin, hovuzların su izolyasiyası olan müasir su izolyasiyası materialıdır.

GEOTEKSTİL

Geotekstil–ayırıcı, gücləndirici (möhkəmləndirici) qoruyucu, filtrasiya və drenaj materialı qismində mülki inşaatda geniş istifadə edilir.

BUXAR VƏ HIDROIZOLYASIYA PLYONKALARI

Plyonkaların çoxtəbəqəli strukturu buxar keçirməzliyinin, suya və mexaniki zədələnmələrə davamlığının yüksək dərəcədə balanslaşdırılmış göstəricilərini təmin edir.

OSB FANERA

Rütubətədavamlı OSB faneri maili dam örtüyü üçün ən yaxşı materiallardan biridir. Plitə təbəqələrindəki yonqarın müxtəlif istiqamətləri var: xarici – uzununa, daxili – eninə. Və beləliklə plitənin yüksək davamlığını təmin edir.

NICOBAND GERMETİK LENT

Bitişmələrin izolyasiyası, dam örtüklərinin və navalça sistemlərinin təmiri üzrə tətbiq olunur. Xüsusi UB müdafiə onun otaq xaricində istismar müddətini artırır, rəng çeşidləri isə istənilən dama uyğunlaşır.

Sualınız varsa,
zəng vurun!

(+994 12) 562 **5005**
(+994 50) 562 **5005**

www.ttt.az